Peşə təhsili və insan kapitalı. Cild 5, №3, 2022, s.69-73

# "ELEKTROVOZ MAŞİNİSTİ KÖMƏKÇİSİ" İXTİSASININ SƏRİŞTƏƏSASLI NÜMUNƏVİ TƏHSİL PROQRAMININ (KURİKULUMUN) HAZIRLANMA METODİKASI



**Səlimə Quliyeva,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun*
*Peşə və ömürboyu təhsil şöbəsinin aparıcı mütəxəssisi*
*e-mail: selimequliyeva89@gmail.com*

***Elektrovoz maşinisti köməkçisi*** elektrovoz maşinistinə tabe olan və lokomotivə xidmət göstərilməsi işi ilə bağlı köməkçi funksiyaları yerinə yetirən mütəxəssisdir. Bu peşənin tarixi IX əsrin ortalarına – buxar lokomotivlərinin yarandığı dövrə təsadüf edir. Müasir lokomotiv briqadaları maşinistdən və onun köməkçisindən ibarətdir. Onlar lokomotivin qəbulu, təhvili, təhlükəsiz və səmərəli idarə olunmasına, eləcə də texniki qulluq işlərinə birbaşa cavabdehdirlər. Belə ki, maşinist köməkçisi təkcə lokomotivin texniki məsələlərini həll edən mütəxəssis deyil, həm də tamhüquqlu maşinistin ehtiyat nüsxəsidir (maşinist vəsiqəsi olduğu halda rəhbərliyin xüsusi göstərişinə əsasən, maşinisti əvəz etmək hüququ verilə bilər). İxtisaslaşdırılmış təhsil müəssisələrində bu ixtisasa yüksək tələbat mürəkkəb və məsuliyyətli peşənin aşağıdakı üstünlükləri ilə bağlıdır:

• *Qatarlar kütləvi və səmərəli nəqliyyat növü olduğundan maşinist köməkçilərinə tələbat çox yüksəkdir. Bu ixtisasa yiyələnən şəxs ölkənin dəmir yolu ilə əlaqəsi olan istənilən yerində işlə təmin oluna bilər ki, bu da həmin peşəni gənclər arasında çox populyar edir.*

• *Karyera yüksəlişinin mövcudluğu da bu peşənin məsuliyyətliliyini artırır. Bir neçə il problemsiz işlədikdən sonra köməkçi müəssisə tərəfindən elektrovoz maşinistləri kurslarına göndərilə bilər və bundan sonra o, müəyyən edilmiş formada maşinist köməkçisi vəsiqəsi alaraq yeni, daha məsuliyyətli və yüksək əməkhaqqı olan ixtisas üzrə işə başlaya bilər.*

• *Dəmiryolçuların tibbi müayinəsi və müalicəsi tamamilə pulsuzdur və bu Dəmir Yolları Nazirliyinə məxsus hərtərəfli təchiz olunmuş tibb müəssisələrində həyata keçirilir.*



Sözügedən peşənin üstünlüklərinə baxmayaraq, onun bir çox mənfi cəhətləri də var. Bunlara daimi səs-küy, vibrasiya, güclü elektromaqnit sahəsi, yol tozuna məruz qalma səbəbindən qapalı məkanda işləmək kimi çətin iş şəraiti daxildir. Dəmir yolu nəqliyyatında baş verən qəza və fəlakətlərin riskini, habelə insanların həyatı üçün artan məsuliyyət hissini də unutmamalıyıq. Bu, bəzən daimi narahatlıq və əsəb gərginliyinə səbəb olur.

**Əmək şəraiti aşağıdakı kimi təşkil olunur:**

*– iş hər növ hava şəraitində, qatarların yayqış hərəkət cədvəllərinə uyğun olaraq həyata keçirilir;*

*– sərnişin qatarlarına xidmət göstərmək tərtib olunmuş cədvəllərə əsasən yerinə yetrilir;*

*– müvafiq peşə geyim forması və iş zamanı səliqəli görünmək tələb olunur;*

*– əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydaları Azərbaycan Respublikasının Konstitusiyası, Əmək Məcəlləsi, Texniki Təhlükəsizlik haqqında Qanun və digər müvafiq qanunvericilik aktları ilə müəyyən olunur.*

**Elektrovoz maşinisti köməkçisindən tələb olunan biliklər:**

*– Azərbaycan Dəmir Yollarının texniki istismar qaydaları;*

*– işarəvermə təlimatı;*

*– qatarların hərəkəti və manevr işi üzrə təlimatı;*

*– lokomotivlərə texniki xidmət, qatarların səmərəli idarə edilməsi və manevr işinin yerinə yetirilməsi üzrə texniki biliklər.*

**Elektrovoz maşinisti köməkçisindən tələb olunan bacarıqlar:**

*– lokomotivin əyani yoxlanılması, hazırlanması və yerləşdirilməsi ilə bağlı təlimatları, prosedurları, məlumatları və işarələri oxumaq və şərh etmək;*

*– müxtəlif texniki göstəriciləri, potensial riskləri və ətraf mühiti nəzərə almaqla fəaliyyətə düzəlişlər etmək;*

*– lokomotivin fəaliyyətini dayandıran zaman yarana biləcək təhlükələri azaltmaq, onlara nəzarət etmək və ya aradan qaldırmaq üçün tədbirlər görmək;*

*– avadanlıqlardan təhlükəsiz istifadə etmək;*

*– müvafiq tədbirləri müəyyən etmək üçün avadanlıqda olan qüsurları qiymətləndirmək;*

*– dəqiq şəkildə sənədləşdirməni həyata keçirtmək.*

**Elektrovoz maşinisti köməkçisinin vəzifə öhdəlikləri:**

*– lokomotivə qulluq və texniki xidmət göstərmək üçün maşinist tərəfindən verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirmək;*

*– lokomotivin detal və aqreqatlarının, xidmət etdiyi qatarların vəziyyətlərinə nəzarət etmək;*

*– lokomotivin (qatarın) özbaşına hərəkətə gəlməsinin qarşısını almaq üçün bərkidilməsinə nəzarət etmək;*

*– işıqforun qadağanedici işarəsinə doğru hərəkət edərkən maşinistə işarənin göstərişini, kontrollerin vəziyyətini və tormoz magistralındakı təzyiqin miqdarını şifahi qaydada məruzə etmək;*

*– qadağanedici işarəni keçməmək üçün qatarın (lokomotivin) dayandırılmasına maşinist tərəfindən cəhd olmadıqda tədbir görmək;*

*– maşinist lokomotivi idarə etmək qabiliyyətini qəflətən itirdikdə qatarı (lokomotivi) dayandırmaq və onu özbaşına hərəkətə gəlməsinə qarşı müəyyən edilmiş qaydada bərkitmək, yaxınlıqdakı qatarların maşinistlərinə, qatar dispetçerinə, stansiyaların növbətçisinə radiorabitə vasitəsilə məlumat vermək;*

*– texniki istismar qaydalarının, qüvvədə olan təlimatların, əmrlərin və göstərişlərin tələblərinə riayət etmək, hərəkətin təhlükəsizliyini təmin etmək.*

**Elektrovoz maşinisti köməkçisinin hüquqları:**

*– vəzifəsinə aid depoda olan normativ və texniki sənədlərdən istifadə etmək;*

*– lokomotivlərdə təmir növlərinin və texniki xidmətin keyfiyyətli aparılmasını yoxlamaq, təmir kitabına və texniki vəziyyət jurnalına iradlar varsa, qeyd etmək;*

*– hərəkət cədvəlinin və hərəkətin təhlükəsizliyinin təmin edilməsində aşkar olunmuş çatışmazlıqlar barədə rəhbər işçilərə məlumat vermək üçün xidməti telefonlardan istifadə etmək;*

*– maşinist köməkçisi vəzifəsini icra edərkən aşkar olunmuş pozuntular barədə onun formulyarına qeydiyyat aparmaq;*

*– dəmir yolu nəqliyyatının istənilən vəzifəli şəxsinə işin təkmilləşdirilməsi üzrə təkliflərlə müraciət etmək.*

Vəzifələrini yerinə yetirməyən və yaxud pozan elektrovoz maşinisti köməkçisi müəyyən edilmiş qaydada qüvvədə olan qanunvericiliklə məsuliyyət daşıyır. Səfərdən sonra elektrovoz maşinisti köməkçisi lokomotivi təhvil verməlidir. O, jurnalda lazımi qeydləri etməli və oradakı avadanlığın işləməsi ilə bağlı şərhlər yazmalıdır. Bundan sonra mütəxəssis kabin otağını təmizləməli, pəncərələri və qapını bağlamalıdır.

**"Elektrovoz maşinisti köməkçisi" peşəsinə yiyələnmək istəyənlər aşağıdakı özəlliyə sahib olmalıdırlar:**

*– ayıq-sayıq, diqqətli, bilikli və bacarıqlı olmaq;*

*– dəqiq iş qrafikinə uyğun məsuliyyətli və etibarlı çalışmaq;*

*– yazılı və şifahi təlimatlara qulaq asmaq və onlara riayət etmək;*

*– tərtib olunmuş iş qrafikinə əsasən dəyişkən iş saatlarını nəzərə almaq;*

*– təfərrüatlara diqqət yetirmək.*

"Elektrovoz maşinisti köməkçisi" ixtisası üzrə səriştəəsaslı kurikulum "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli, 85 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsilinin dövlət standartları", nümunə kimi Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən təqdim olunmuş Azərbaycan Respublikası Təhsil Nazirliyinin 14 sentyabr 2020-ci il tarixli, F-427 nömrəli əmri ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrinin 2021-2022-ci tədris ilinə aid tədris planları, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının Qərarı ilə təsdiq edilmiş "Elektrovoz maşinisti" ixtisasının peşə və kvalifikasiya standartları, AzVET, Tvinninq, NİRAS və bu kimi digər layihələr çərçivəsində hazırlanmış kvalifikasiya standartı və kurikulumların hazırlanması və qiymətləndirilməsi barədə təlimatların layihələri və digər müvafiq normativ sənədlər əsasında tərtib edilmişdir.

030615. "maşinist" ixtisas qrupunun "elektrovoz maşinisti köməkçisi" ixtisasının təqdim olunan nümunəvi kurikulumu "İlk peşə-ixtisas təhsilinin dövlət standartları" layihəsi əsasında maraqlı tərəflərin nümayəndələrindən ibarət təşkil edilmiş işçi qrupu tərəfindən hazırlanmışdır. İSCED kodu: 8311 "Elektrovoz maşinisti köməkçisi" ixtisası üzrə Təhsil Proqramı (kurikulum) da ilk peşə-ixtisas təhsili alanlar üçün (səviyyə 4) nəzərdə tutulmuşdur.

Təhsil Proqramı (kurikulum) elektrovoz maşinisti köməkçisi peşəsinə sahib olmaq üçün zəruri sayılan bilik və bacarıqları özündə əks etdirən ***əsas, ümumi*** və ***spesifik*** səriştə modullarından ibarətdir.

***Əsas səriştə modulunu*** reallaşdırmaq üçün Azərbaycan dilində ünsiyyət, xarici dildə ünsiyyət, peşə etikası və sosial həyat bacarıqları, sahibkarlıq, peşəkar fəaliyyətdə informasiya texnologiyalarının, eləcə də Azərbaycan Respublikası qanunvericiliyinin əsasları haqqında məlumat verilir.

***Ümumi səriştə modulunu*** reallaşdırmaq üçün sağlamlıq və əməyin mühafizəsi, texniki rəsmxət, elektrotexnika və elektromaterialşünaslıq haqqında məlumat verilir.

***Spesifik səriştə modulunu*** reallaşdırmaq üçün dəmir yolunun ümumi kursu, avtotormozlar, texniki istismar qaydaları və təlimatlar, elektrovozların quruluşu və təmiri, elektrovozun idarə edilməsi və texniki xidmət aparılması haqqında məlumat verilir.

Elektrovoz maşinisti köməkçisi ixtisası aşağıdakı modul və təlim nəticələrindən ibarətdir.

**Modul 1.** *Dəmir yolunun ümumi kursu*

"Dəmir yolunun ümumi kursu" modulunu dəmir yolu nəqliyyatının elektrik hərəkət tərkibləri barədə ümumi məlumatlar, elektrik lokomotivlərinin mexaniki hissələri, sabit cərəyan elektrik lokomotivlərinin elektrik avadanlıqları, dəyişən cərəyan elektrik lokomotivlərinin və qatarlarının xüsusiyyətləri, onların dəmir yolu nəqliyyatında praktiki tətbiqi, qeyri-mənbədən qidalanan lokomotivlər barədə ümumi məlumatlar, vaqonların təsnifatı və təyinatı, avtomatika və telemexanika qurğularının vəzifəsi və təsnifatı, dəmir yolu nəqliyyatında rabitə sistemlərinin növləri və onlara xidmət, bölmə məntəqələrinin təyinatı və təsnifatı, qatarların hərəkət qrafikinin əhəmiyyəti və təsnifatı, lokomotivlərə xidmətin təşkili reallaşdırır.

***Təlim nəticəsi: 1.*** Dəmir yolu nəqliyyatının elektrik hərəkət tərkibləri barədə ümumi məlumatları, elektrik lokomotivlərinin mexaniki hissələrini, sabit cərəyan elektrik lokomotivlərinin elektrik avadanlıqlarını, dəyişən cərəyan elektrik lokomotivlərinin və qatarlarının xüsusiyyətlərini bilir və onların dəmir yolu nəqliyyatında praktiki tətbiqini bacarır.

***Təlim nəticəsi 2.*** Qeyri-mənbədən qidalanan lokomotivlər barədə ümumi məlumatları, vaqonların təsnifatı və təyinatını, avtomotika və telemexanika qurğularının vəzifəsini və təsnifatını bilir.

***Təlim nəticəsi 3.*** Dəmiryolu nəqliyyatında rabitə sistemlərinin növlərini, onlara xidməti, bölmə məntəqələrinin təyinatı və təsnifatını, qatarların hərəkət qrafikinin əhəmiyyətini və təsnifatını, lokomotivlərə xidmətin təşkilini bacarır.

**Modul 2**. *Avtotormozlar*

"Avtotormozlar" modulunu qatar əyləclərinin təsnifatı, tormozlamanın əsasları və xüsusiyyətləri, tormozlarda idarəetmə qurğularının quruluşu, iş prinsipi, tormozların sıxılmış hava ilə qidalanma qurğuları, tormozqol ötürmələri, əyləclərə və tormoz avadanlıqlarına texniki qulluq reallaşdırır.

***Təlim nəticəsi 1.*** Qatar əyləclərinin təsnifatını, tormozlamanın əsaslarını və onun əsas xüsusiyyətlərini bilir.

***Təlim nəticəsi 2.*** Tormozlarda idarəetmə qurğularının quruluşu və iş prinsipini, tormozların sıxılmış hava ilə qidalanma qurğularını bilir.

***Təlim nəticəsi 3.*** Qatar əyləclərinə və tormoz avadanlıqlarına texniki qulluq göstərməyi bacarır.

**Modul 3.** *Texniki istismar qaydaları və təlimatlar*

"Texniki istismar qaydaları və təlimatlar" modulunu qatarların hərəkət və manevr işlərinə aid olan işarələri, çəpərləmə işarələri, işıqforların təyinatı və iş prinsipi, əl işarələri, səs işarələri, işarə göstəriciləri və nişanları, işarəvermə cihazlarının növlərinin müəyyən edilməsi, qatarların qəbulu və yola salınması, qatarların düzgün olmayan istiqamətdə hərəkəti, ikitərəfli hərəkət, dəmir yolu nəqliyyatı işçilərinin ümumi vəzifələri, yol təsərrüfatının tikili və qurğuları, torpaq yatağının ölçüləri, yolun üst quruluşu və süni qurğular, relslərin tipləri və yoldəyişənlərin markaları, dəmir yollarının kəsişmələri, keçidləri, birləşmələri, yol işarə və nişanları reallaşdırır.

***Təlim nəticəsi 1.*** Qatarların hərəkəti və manevr işlərinə aid olan işarələri, çəpərləmə işarələrini və işıqforların təyinatını və onların iş prinsipini, əl işarələrini, səs işarələrini, işarə göstəricilərini və nişanları bilir. Göstərişləri və səsli işarələr sistemini, eləcə də bu işarələrin verilməsi üçün nəzərdə tutulan işarəvermə cihazlarının növlərini müəyyən edə bilir.

***Təlim nəticəsi 2.*** Qatarların qəbulu və yola salınmasını, qatarların düzgün olmayan istiqamətdə hərəkətini, ikitərəfli hərəkəti, görünmə dərəcəsi azaldıqda və ya fövqəladə hallar baş verdikdə qatarların hərəkəti və əsas işarəvermə vasitələrinin işi dayandırıldıqda qatarların hərəkətinin təşkilini bilir.

***Təlim nəticəsi 3.*** Dəmir yolu nəqliyyatı işçilərinin ümumi vəzifələrini, yol təsərrüfatının tikili və qurğularını, torpaq yatağının ölçülərini, yolun üst quruluşunu və süni qurğuları, relslərin tiplərini və yoldəyişənlərin markalarını, dəmir yollarının kəsişmələrini, keçidləri, birləşmələri, yol işarə və nişanlarını bilir.

***Təlim nəticəsi 4.*** Mənzillərdə və stansiyalarda qatarların hərəkətinə maneə törədən yerlərin və iş görülən sahələrin çəpərlənməsini, stansiya yollarında hərəkət tərkibinin çəpərlənməsini, mənzildə məcburi dayanma zamanı qatarın çəpərlənməsi qaydalarını, avtomat və yarımavtomat yol bloklamasını, yoldəyişənlərin və işarələrin elektrik mərkəzləşdirilməsini, dispetçer mərkəzləşdirilməsini, avtomat lokomotiv işarəvericisi və avtostopların təyinatını, yoldəyişənlərin işarələrini bilir.

**Modul 4.** *Elektrovozun quruluşu və təmiri*

"Elektrovozun quruluşu və təmiri" modulunu elektrovoz haqqında ümumi məlumatlar, elektrovozun növləri, texniki göstəriciləri, nasazlıqların aşkar edilməsi, detalların zədələnməsinin, yeyilməsinin, deformasiyaya uğramasının müəyyən edilməsi, elementlərin təmirə hazırlanması, sökülüb-yığılması, zədəli detalların dəyişdirilməsini reallaşdırır.

***Təlim nəticəsi 1.*** Elektrovoz haqqında ümumi məlumatları, elektrovozun növlərini və texniki göstəricilərini bilir.

***Təlim nəticəsi 2.*** Elektrovozun elektrik sxemləri haqqında ümumi məlumatları, elektrik hissələrinin əsas elementlərini, təyinatını və növlərini bilir. Nasazlıqları aşkar edərək, detalın zədələnməsini, yeyilməsini, deformasiyaya uğramasını müəyyən etməyi, təmir olunacaq elementlərin təmirə hazırlanmasını, sökülüb-yığılmasını, zədəli detalların dəyişdirilməsini bacarır.

***Təlim nəticəsi 3***. Elektrovozun mexaniki hissələrinin əsas elementlərini, təyinatını və növlərin bilir. Nasazlıqları aşkar edərək, detalın zədələnməsini, yeyilməsini, deformasiyaya uğramasını müəyyən etməyi, təmir olunacaq elementlərin təmirə hazırlanmasını, sökülüb-yığıl-

masını, zədəli detalların dəyişdirilməsini bacarır.

***Təlim nəticəsi 4.*** Pnevmatik sxemlər haqqında ümumi məlumatları, elektrovozun pnevmatik hissələrinin əsas elementlərini, təyinatını və növlərini bilir. Nasazlıqları aşkar edərək, detalın zədələnməsini, yeyilməsini, deformasiyaya uğramasını müəyyən etməyi, təmir olunacaq elementlərin təmirə hazırlanmasını, sökülüb-yığılmasını, zədəli detalların dəyişdirilməsini bacarır.

**Modul 5.** *Elektrovozun idarəsi və texniki xidməti*

"Elektrovozun idarəsi və texniki xidməti" modulunu elektrovoz depolarında işin təşkili, səfərdən əvvəl elektrovozun qəbulu qaydası, lokomotivin təchizat qaydası, yol işarə nişanları, elektrovozun qışa hazırlanması, pnevmatik və əyləc sistemlərinin yoxlanılması, qatar rabitəsinin quruluşu, istifadə və təhlükəsizlik qaydaları, avadanlıqlarda baş verən nasazlıqların aşkar edilməsi və bərpa üsulları, qış vaxtı lokomotivi idarəetmə bacarığı, elektrovoza texniki xidmətin təşkili növləri, sürtülən hissələrin yeyilməsinin qarşısının alınması qaydaları, əyləc avadanlıqlarının yoxlanılması, elektrovozun yağlanan hissələrinə baxış və yağlama işlərinin aparılmasının həyata keçirilməsi reallaşdırır.

***Təlim nəticəsi: 1.*** Elektrovoz depolarında işin təşkilini, elektrovoz briqadasının depoda vəzifələrini, səfərdən əvvəl elektrovozun qəbulu qaydasını, lokomotivin təchizat qaydasını, yol işarə nişanlarını, elektrovozun qışa hazırlanmasını, pnevmatik və əyləc sistemlərinin yoxlanılmasını, qatar rabitəsinin quruluşunu, istifadə və təhlükəsizlik qaydalarını bilir.

***Təlim nəticəsi 2.*** Stansiyada və yolda elektrovozun avadanlıqlarına qulluq etməyi, yolda hərəkət zamanı texniki təhlükəsizlik qaydalarına riayət etməyi, avadanlıqlarda baş verən nasazlıqların aşkar edilməsini, bərpa üsullarını və qış vaxtı lokomotivi idarə etməyi bacarır.

***Təlim nəticəsi 3.*** Elektrovoza texniki xidmətin təşkil edilməsini, elektrovozun texniki xidmət növlərini, sürtülən hissələrin yeyilməsinin qarşısının alınması qaydalarını bilir.

***Təlim nəticəsi 4.*** Elektrovozu təhvil almağı, depoda TX-1,2, əyləc avadanlığını yoxlamağı, elektrovozun başqa briqadaya təhvil verilməsinin həyata keçirilməsini, elektrovozun yağlanan hissələrinə baxış və yağlama işlərinin aparılmasını həyata keçirtməyi bilir.

**Nəticə.** Elektrovoz maşinisti köməkçisi əsasən, Azərbaycan Respublikası dəmir yolları tabeliyində olan daşınma xidmətləri göstərən müəssisədə fəaliyyət göstərir və işinin böyük hissəsini dartı qüvvəsi ilə hərəkət edən nəqliyyat vasitələrində keçirir. Elektrovoz maşinisti köməkçisi işə gəlməmişdən əvvəl yaxşı istirahət etməlidir. İşdə olarkən üzərində elektrik təhlükəsizliyi üzrə qrupun verilməsini təsdiq edən vəsiqə, lokomotivi (MVHH) idarə etmək hüququ verən şəhadətnamə, maşinist köməkçisinin vəsiqəsi olmalıdır. Lokomotivə (MVHH) texnikibaxış keçirərkən xüsusi formada olmalıdır. Onu da qeyd edək ki, elektrovoz maşinisti köməkçisi tərəfindən təhlükəsizlik tələblərinin yerinə yetirilməsinə görə cavabdehlik və nəzarət birbaşa maşinistə həvalə olunur.

## ƏDƏBİYYAT


1. Şərifov K.M. Azərbaycan Dövlət Dəmir Yolunun Texniki İstismar Qaydaları. Bakı, Çaşıoğlu, 2000.
2. Kazımov K.M. Azərbaycan Dövlət Dəmir Yolunda qatar və manevr işlərində hərəkətin təhlükəsizliyinin pozulması hallarının araşdırılmasına dair təlimat. Bakı, Çaşıoğlu, 2005, 80 səh.
3. Şərifov K.M. Azərbaycan Dövlət Dəmir Yolunun İşarəvermə Təlimatı. Bakı, 2001.
4. Şərifov K.M. Azərbaycan Dövlət Dəmir Yolunun qatarların hərəkəti və manevr işinə dair Təlimatı. Bakı, 2002.
5. Lokomotiv briqadalarının əməyinin mühafizəsinə dair Təlimat. Bakı, 2004.
6. Lokomotiv briqadalarının vəzifə Təlimatları. Bakı, 1999.
7. İsayev M., Mahmudbəyli L., Şəkərəliyev S., Osmanov A. Dəmiryolu nəqliyyatında avtomatlaşdırılmış idarəetmə sistemləri (orta ixtisas təhsilli müəssisələr üçün dərslik). Bakı, 2019.
8. Nəzirov Q.H., Bağırov S.M. "Dəmir yolu ümumi kurs" fənnindən əlavə vəsait. Bakı, 2010.
9. Abbasov F. Avtotormozlar. Bakı, 2012.
10. Abbasov F. Elektrovozun quruluşu və təmiri (ilk peşə-ixtisas müəssisələri üçün dərslik).